# "Hürriyet" qəzeti: "Qars-Naxçıvan dəmir yolu xəttinin tikintisinin başlanması Zəngəzur dəhlizinə doğru atılan tarixi addımdır"

"Avqustun 22-də, cümə günü Türkiyənin şərqində bütün region üçün xüsusi əhəmiyyətə malik olan hadisə baş verəcək. Belə ki, 224 kilometr uzunluğunda Qars-İğdır-Aralık-Dilucu (Naxçıvanla sərhəddə) dəmir yolu xəttinin tikintisinin başlanması Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində atılan tarixi addım olacaq. Bu xətt ildə 5,5 milyon sərnişin və 15 milyon ton yüklərin daşınmasına imkan verəcək".

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin nüfuzlu "Hürriyet" qəzeti yazır. Məqalədə qeyd olunur ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların bərpası layihəsi bütün dünyanın, o cümlədən ABŞ-nin diqqətini cəlb edir.

Qəzet vurğulayır ki, yeni dəhlizə təkcə Cənubi Qafqaz regionunun infrastrukturu və nəqliyyat-logistikasının inkişafı nöqteyi-nəzərindən baxmaq olmaz. Müəllif Hande Fırat qeyd edir: "Zəngəzur dəhlizi Türkiyə ilə Azərbaycan arasında əlaqələrin daha da dərinləşməsinə imkan verən dövlətlərarası iqtisadi və siyasi qarşılıqlı fəaliyyətin nümunəsidir".




Məqalənin müəllifi Zəngəzur dəhlizinin Naxçıvanın iqtisadi inkişafına güclü stimul olacağını qeyd edir və onun dividendlərinə diqqət yetirir. O yazır: "Zəngəzur dəhlizi Ermənistana da müsbət təsir göstərəcək, o, tranzit ölkəyə çevrilə və daha çox xarici investisiya cəlb edəcək regional inteqrasiya proseslərində iştirak edə biləcək".

Yazıda Zəngəzur dəhlizinin Cənubi Qafqazda davamlı sülh və mehriban qonşuluq kontekstində rolu vurğulanır: "Beynəlxalq konsorsiumların bu layihədə iştirakı müasir texnologiyaların, nou-hauların və investisiyaların cəlb edilməsi deməkdir. Beləliklə, Zəngəzur dəhlizi dünyanın digər regional inkişaf layihələri üçün nümunəyə çevrilir".

Jurnalist Hande Fırat Qars-Dilucu dəmir yolunu "Türkiyə və bütün region üçün strateji nailiyyət" adlandırır. "Bu dəhliz tarixi proseslərin parçaladığı marşrutları bərpa edəcək, türk dünyasında körpü rolunu oynayacaq, həmçinin Avropa ilə Asiya arasında ticarətdə mühüm marşruta çevriləcək. Beləliklə, Türkiyə qitənin ticarət əlaqələrində əvəzsiz tranzit aktora çevriləcək. Zəngəzur dəhlizi gələcək onilliklər ərzində proseslərə təsir etmək potensialına malik bir təşəbbüsdür", - deyə müəllif fikirlərini yekunlaşdırıb.

Azərbaycan.- 2025.- 22 avqust (№ 176).- S.10.